| AZƏRBAYCAN RESPUBLİKASI SAHİBKARLAR (İŞƏGÖTÜRƏNLƏR) TƏŞKİLATLARI MİLLİ KONFEDERASİYASI | | NATIONAL CONFEDERATION OF ENTREPRENEURS (EMPLOYERS) ORGANIZATIONS OF AZERBAIJAN REPUBLIC |
|---|---|---|

**22.10.2018**

# MƏLUMAT BÜLLETENİ

| TƏLİM | |
|---|---|
| **Tarix**<br>30 oktyabr - 2 noyabr, 2018<br>**Keçirildiyi yer**<br>Bakı şəhəri Akademik Həsən Əliyev küç., 57, 3-cü mərtəbə, ASK ofisi<br>**Əlaqə üçün**<br>Cavid Kərimov<br>ckarimov@ask.org.az<br>465-72-42 (109) | Sahibkarlar və SƏTƏM sahəsi üzrə mütəxəssislərin nəzərinə!<br><br>Sizi Beynəlxalq Əmək Təşkilatı (BƏT) və BƏT-in Beynəlxalq Təlim Mərkəzinin təşkilatçılığı ilə “Sağlam və Təhlükəsiz Əməyin Təşkili” adlı beynəlxalq təlimdə iştirak etməyə dəvət edirik. Beynəlxalq təlimin təlimçiləri BƏT-in Beynəlxalq Təlim Mərkəzinin xarici ekspertləridir. Təlim bütün gün davam etməklə, ingilis dilində baş tutacaqdır. İştirakçılar, sinxron tərcümə və təlim materialları ilə təmin ediləcəkdir. Qeydiyyatdan keçmək üçün aşağıda göstərilən linkdən istifadə etməyiniz xahiş olunur.<br><br>Qeydiyyat üçün müraciət linki<br><br>Qeydiyyatdan müvəffəqiyyətlə keçmiş şəxslərlə əlaqə saxlanılacaqdır. |
| **Tarix**<br>25-26 oktyabr, 2018<br>**Keçirildiyi yer**<br>Bakı, AZ 1110 Akademik Həsən Əliyev küç. 57, 3-cü mərtəbə, ASK ofisi<br>**Əlaqə üçün**<br>Elmira Balıyeva<br>ebaliyeva@ask.org.az<br>465 72 42 (113) | Hörmətli sahibkarlar! Sizi ASK-nın təşkilatçılığı ilə keçiriləcək “Kənar audit və maya dəyəri” təlimində iştirak etməyə dəvət edirik.<br><br>Təlimdə iştirak qaydaları haqqında ətraflı məlumatı aşağıdakı linkdən əldə edə bilərsiniz.<br>https://bit.ly/2Nuxcwu |

# SAHİBKARLARIN NƏZƏRİNƏ

| **Tarix** | Hörmətli sahibkarlar,<br><br>Sizi, İqtisadi Araşdırmalar Fondu-nun təşkilatçılığı və ASK-nın tərəfdaşlığı ilə “Türkiyə ilə Azərbaycan arasında iqtisadi əməkdaşlıqda yeni üfüqlər” mövzusunda keçiriləcək beynəlxalq simpoziumda iştirak etməyə dəvət edirik. Simpoziumda Türkiyənin müxtəlif xidmət sahələrinə aid 10 şirkətinin iştirakı gözlənilir.<br><br>Simpoziumda iştirak etməklə siz aşağıdakı linkdə adları və sektorları qeyd olunan şirkətlərlə B2B görüşdə iştirak imkanı əldə edəcəksiniz.<br><br>Simpozium haqqında ətraflı məlumatı aşağıdakı linkdən əldə edə bilərsiniz.<br>https://bit.ly/2IOi9No |
|---|---|
| 24 oktyabr, 2018 | |
| **Keçirildiyi yer** | |
| Boulevard Otel, Bakı | |
| **Əlaqə üçün** | |
| Cavid Kərimov<br>ckarimov@ask.org.az<br>465-72-42 (109) | |
| **Tarix** | Hörmətli sahibkarlar,<br><br>Sizi, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası, İqtisadiyyat Nazirliyi və Birləşmiş Millətlər Təşkilatının (BMT) ölkə üzrə nümayəndəliyinin birgə təşkilatçılığı ilə ölkəmizdə “Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) həyata keçirilməsində beynəlxalq və regional tərəfdaşlığın gücləndirilməsi” mövzusunda keçiriləcək “Dayanıqlı inkişafa dair Bakı Forumu”nda iştirak etməyə dəvət edirik.<br><br>Bakı Forumunda BMT-nin Dayanıqlı İnkişaf Gündəliyinin milli səviyyədə icrasına cavabdeh olan Avropa və Asiya ölkələrinin yüksək səviyyəli nümayəndələrinin, BMT rəsmilərinin, beynəlxalq və yerli ekspertlərin, vətəndaş cəmiyyətinin, habelə dövlət və özəl sektoru təmsil edən səlahiyyətli nümayəndələrin iştirakı nəzərdə tutulmuşdur.<br><br>Tədbirdə iştirak etmək üçün qeydiyyatdan keçmək mütləqdir.<br><br>Tədbirin proqramı ilə aşağıdakı linkdən tanış ola bilərsiniz.<br>https://bit.ly/2CJ9knM |
| 25-26 oktyabr, 2018 | |
| **Keçirildiyi yer** | |
| Fairmont Otel, Bakı | |
| **Tarix** | Hörmətli sahibkarlar,<br><br>Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Biznes |
| 2 noyabr, 2018 | |

| | |
|---|---|
| **Keçirildiyi yer** | Şurasının sədri olan Azərbaycan Sahibkarlar Konfederasiyası (ASK) tərəfindən Qara Dəniz regionunda kiçik və orta sahibkarlığın inkişafına həsr edilmiş Beynəlxalq Biznes Forum təşkil olunacaqdır. Forumda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının üzv ölkələrinin sahibkarları, biznesə dəstək təşkilatları Azərbaycanda olan real investisiya imkanları, hal-hazırda icra edilən investisya layihələri haqqında yaxından tanış olacaq, habelə sahibkarlar arasında əməkdaşlıq əlaqələrinin artırılması məqsədilə B2B görüşlər təşkil ediləcəkdir.<br><br>Ətraflı məlumatı keçiddən əldə edə bilərsiniz: https://bit.ly/2pOn7kh |
| Hyatt Regency Otel, Bakı | |
| **Tarix** | Hörmətli konsultantlar!<br><br>Sizi “Rəqəmsallaşma: məsləhətləşmələrdə innovasiya imkanları” mövzusunda Misirdə məsləhətçilər üçün keçiriləcək beynəlxalq konfransa dəvət edirik.<br><br>Konfransın məqsədi bu sahədə konsaltinq sənayesinin qlobal tendensiyaları haqqında danışacaq bir sıra beynəlxalq spikerlərin bir araya gətirilməsi, eləcə də məsləhətləşmələr, rəqəmsal transformasiya, fintech və alternativ maliyyələşdirmə həlləri, online təhsil/təlim modelləri, məlumatların analizi və erkən biznes üçün konsaltinq, yeni diaqnostikası alətləri, ağıllı müqavilələr və blockchain ətrafında müzakirələrin aparılmasıdır.<br><br>Konfransda iştirak haqqı (qala yemək daxil olmaqla) 200 avrodur.<br><br>Qeydiyyatdan keçmək üçün aşağıdakı linkə daxil olun: https://whova.com/portal/registration/sfccc_201811/ Qeydiyyat (ödəniş də daxil olmaqla) online sistemdə aparılır.<br><br>EBRD iştirakçıların səyahət və ya yaşayış xərclərini ödəmir, lakin Mena House Marriott Hotel və yaxınlıqda yerləşən iki otel-də xüsusi endirimli qiymətlərdən yararlana bilərsiniz. |
| 14-15 noyabr, 2018 | |
| **Keçirildiyi yer** | |
| Mena House Marriott Hotel, Qahirə, Misir | |
| **Tarix** | Hörmətli alimlər!<br><br>Sizi İstanbulda keçiriləcək “İdarəetmə, İqtisadiyyat və Siyasət-2018” üzrə 5-ci Beynəlxalq Konqresə dəvət |
| 1-2 dekabr, 2018 | |
| **Keçirildiyi yer** | |

| | |
|---|---|
| Hilton Istanbul Kozyatagi Hotel, İstanbul, Türkiyə<br><br>**Əlaqə üçün**<br><br>Təşkilat Komitəsi<br>E-mail: info@icomep.com<br>Tel: +90 531 310 56 33 | edirik. Konqres Cambridge Scholars Publishing, Missouri-St-UMSL, Uludağ, Trakya , Bandırma Onyedi Eylul, Duzce və Namiq Kamal Universitetlərinin əməkdaşlığı ilə təşkil ediləcək. Konqres tədqiqatçılara hazırkı və yeni fikirləri təqdim etmək, paylaşmaq və müzakirə etmək imkanı verir.<br><br>Konqres bütün sosial elmləri əhatə edir.<br><br>Konqresə yaşayış xərcləri daxil deyildir.<br><br>Əlavə məlumat üçün aşağıdakı keçiddən istifadə edə bilərsiniz: www.icomep.com |
| **SƏRGİLƏR** | |
| **Tarix**<br><br>23-26 oktyabr<br><br>**Keçirildiyi yer**<br><br>Bakı Ekspo Mərkəzi | Hörmətli sahibkarlar,<br><br>Sizi Bakı Ekspo Mərkəzində keçiriləcək inşaat, layihələndirmə və memarlıq sahəsinin ən mötəbər tədbirlərindən biri olan – "BakuBuild Azerbaijan 2018" sərgisində iştirak etməyə dəvət edirik. "BakuBuild Azerbaijan 2018" sərgisi Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Azərbaycan Memarlar İttifaqı, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO), Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) və ilk dəfə olaraq Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən dəstəklənir. Sərginin təşkilatçıları qismində "Iteca Caspian" və onun tərəfdaşı Böyük Britaniyanın "ITE Group" şirkəti çıxış edir.<br><br>Sərgi haqqında ətraflı məlumatı aşağıdakı linkdən əldə edə bilərsiniz.<br>https://bit.ly/2NVUdIU |
| **Tarix**<br><br>24-28 oktyabr, 2018<br><br>**Keçirildiyi yer**<br><br>CNR EXPO Istanbul, İstanbul, Türkiyə | Hörmətli sahibkarlar!<br><br>Sizi TUSİD (İstanbul Mətbəx, Camaşırxana, Xidmət və Keytrinq Avadanlıqları üzrə Sənayeçləri və İş adamları Dərnəyi) tərəfindən təşkil olunan 23-cü Beynəlxalq Otel, Restoran, Kafe, Şirniyyat evi Avadanlıqları və Texnologiyaları Sərgisinə dəvət edirik.<br>Niyə məhz "Beynəlxalq Otel, Restoran, Kafe, Şirniyyat evi Avadanlıqları və Texnologiyaları Sərgisi"? |

| | |
|---|---|
| **Əlaqə üçün**<br><br>*Ziyarətçi kimi:*<br>Duygu OZENC<br>Marketinq Menecer<br>Tel: +90 212 465 74 74 (2571)<br>E-mail: duygu.ozenc@cnr.net<br><br>*İştirakçı kimi:*<br>Dondu Karabiyik<br>Satış Meneceri<br>Tel: +90 212 465 74 74 (2595)<br>E-mail: dondu.karabiyik@cnr.net | • Sərgi həm Şərq-Qərb, həm də Şimal Cənub arasında təbii körpü rolunu oynamaqla əsas bazarlara səmərəli çıxış yaradır;<br>• Avropada, Avrasiyada, Yaxın Şərqdə və Şimali Afrikada 1.6 milyard müştərini bir araya gətirir və s. |
| **Tarix**<br>6-11 noyabr, 2018<br><br>**Keçirildiyi yer**<br>İstanbul, Türkiyə<br><br>Ətraflı məlumatı www.furnitureistanbul.com.tr saytından əldə etmək olar. | 6 qitə,140 ölkə, 100 000 alıcı İstanbulda görüşəcək!<br><br>**İstanbul Mebel Sərgisi** beynəlxalq arenada türk mebel sənayesinin rəqabət qabiliyyətini və ixracat həcmini artırmaqla yanaşı yeni bazarlara çıxış imkanı yaratmaq məqsədilə təşkil olunur. Sərgi ixracat həcmini artırmaq və aparıcı mebel brendləri ilə yeni biznes əlaqələri yaratmaqla bərabər mebel istehsalçılarına brendə çevrilmək imkanları üçün əla fürsət təklif edir.<br><br>Aparıcı brendlər arasında yer alın!<br><br>İstanbul Mebel Sərgisində iştirak edən mebel istehsalçıları Türkiyədə aparıcı brendlər arasında yer alacaq və beynəlxalq bazarda bizneslə məşğul olmaq imkanları qazanacaq.<br><br>Sərgi iştirakçıları öz brend və məhsullarının beynəlxalq təşviqini aparmaq habelə 15 il mebel sərgilərini təşkil etməktə təcrübəsi olan CNR Holdinqin yerli və xarici alıcılar barədə məlumat bazasından yaralanmaq imkanı əldə edəcəklər. |
| **Tarix**<br>07-09 noyabr, 2018<br><br>**Keçirildiyi yer**<br>Kiyev, Ukrayna | Sizi Ukraynada avtomobil yollarının və körpülərin layihələndirilməsi, tikilməsi və istismarı ilə bağlı ən böyük və yeganə sərgi olan - 16-cı Beynəlxalq Ticarət Sərgisində iştirak etməyə dəvət edirik. “AvtodorExpo” sərgisi sektor liderlərini bir araya gətirəcək. Bundan əvvəlki sərgidə İspaniya, Rusiya, Belarus, Almaniya, Fransa, İtaliya, Polşa, Türkiyə, Çexiya Respublikası, Çin və Pakistan kimi ölkələrdən 156 iştirakcı qatılıb. Sərgi peşəkarlar üçün əməkdaşlıq və ədalətli iş münasibətlərini inkişaf etdirmək imkanları yaradacaq. Əlavə məlumatı www.avtodorexpo.ua saytından əldə etmək olar. |

| | |
|---|---|
| **Tarix**<br>11-17 noyabr, 2018<br>**Keçirildiyi yer**<br>Əbu-Dabi, BƏƏ | **ADIPEC - Əbu-Dabi Beynəlxalq Sərgi-Konfransı** neft və qaz sənayəsində dünyanın ən vacib tədbirlərindəndir.<br><br>Ötən il sərginin 4 günü ərzində 10.4 milyard dollar dəyərində biznes müqavilələr bağlanılıb. 2018-ci ildə bu rəqəmin artacağı gözlənilir. İştirakçıların 82%-i qərar qəbul edən şəxslər,alıcılar və təsir edici şəxslər təşkil edir ki, bu da tədbirin biznes üçün real imkanlar yaratması deməkdir.<br><br>ADIPEC dünyanın əhəmiyyətli neft və qaz sərgilərindən biridir. Sərgidə dünyanın 100-dən çox ölkəsindən insanlar iştiirak edir. Dörd gün ərzində 20 milli neft şirkəti, 18 transmilli neft şirkəti biznes və yeni əməkdaşlıq imkanlarını müzakirə edəcəklər. Sərgidə 30 ölkənin pavilyonu quraşdırılacaq və 2200-dən artıq şirkət təmsil olunacaq.<br><br>Ətraflı məlumatı www.adipec.com saytından əldə etmək olar. |
| **Tarix**<br>12-13 noyabr, 2018<br>**Keçirildiyi yer**<br>Conrad Hotel, Dubay, BƏƏ<br>**Əlaqə üçün**<br>Rabia Alga (Memar)<br>Biznesin inkişafı üzrə director<br><br>AntExpo Org. ve Dan. Tic. Ltd. Şti<br><br>Tel: +90 216 541 0390<br>GSM: +90 532 461 5838<br>Fax: +90 216 541 0389<br>Skype: rabia.alga<br>E-mail: rabia@antexpo.com.tr<br>Web: www.antexpo.com.tr | Hörmətli sahibkarlar,<br><br>Sizi "Cleanzone Middle East Summit"-də iştirak etməyə dəvət edirik. Sərgidə aşağıda adları çəkilən tibb sənaye sahələri və digər müvafiq sahələrin nümayəndələri iştirak edə bilərlər:<br><br>İstehsalçılar, tibb sahəsi üzrə direktorlar və şöbə müdirlərin iştirakı arzuolunandır.<br>• Texnologiya departamenti<br>• Təsisatlar idarəsi<br>• Əməliyyatlar departamentləri<br>• Dizayn və mühəndislik departamenti<br>•Keyfiyyətin təminatı və keyfiyyətə nəzarət departamentləri<br>• İdarəetmə və strategiya<br>• Həyat elmləri<br>• Hökumət orqanları və tənzimləyici qurumlar<br>• Dərman istehsalatı və qablaşdırma<br>• Xəstəxanalar/klinikalar/diaqnostika mərkəzləri<br>• Aerokosmik / aviasiya istehsalatı<br>• Tibbi texnologiya və tibbi cihazlar<br>• Kosmetika istehsalı<br>• Elektronika və mikro elektronika<br>• Optika<br>• Qida istehsalatı və emalı |

| | |
|---|---|
| **Tarix**<br>22-24 noyabr, 2018<br>**Keçirildiyi yer**<br>Bakı Ekspo Mərkəzi<br>**Əlaqə üçün**<br>Nurlana Həsənova<br>nhasanova@ask.org.az<br>465 72 43 (112) | Əmlak Məsələləri Dövlət Komitəsi, Türkiyənin "ElanExpo"şirkətinin birgə təşkilatçılığı ilə **Azərbaycanın Beynəlxalq Daşınmaz Əmlak və İnvestisiya Sərgisi- "RecExpo" -** keçiriləcək.<br><br>Əlavə məlumatı keçiddən əldə edə bilərsiniz. |
| **Tarix**<br>18-20 yanvar, 2019<br>**Keçirildiyi yer**<br>Bombay Sərgi Mərkəzi, Mumbay, Hindistan | Hörmətli sahibkarlar!<br><br>Sizi 2-ci Qlobal Tekstil Texnologiyası və Mühəndisliyi Sərgisinə (QTTMS 2019) dəvət edirik.<br><br>3 gün ərzində bu sərgidə 17 ölkənin biznes sektorundan olan ziyarətçilərin iştirakı gözlənilir. Bu tədbir Hindistanda yeganə kommersiya tədbiridir ki, çox sayda ölkədən maraqlanan şəxsləri bir araya gətirərək tekstil maşınları istehsalçıları üçün biznes və kommersiya fəaliyyətini genişləndirməyə yönəlmişdir.<br><br>Bu tədbir Hindistan Hökuməti Tekstil Nazirliyi, Hindistan Hökuməti Ağır Sənaye Bölməsi və Maharaştra Hökuməti tərəfindən dəstəklənir.<br><br>Hindistanın tekstil sənayesi dünyada Çindən sonra 2-ci yeri tutur.<br><br>Tədbirin təşkilatçısı – Hindistan Beynəlxalq Tekstil Maşınları Sərgiləri Cəmiyyəti, sponsor olaraq Hindistan Hökuməti, Hindistanda texnologiyanın təkmilləşdirilməsini asanlaşdırmaq, tekstil və tekstil mühəndisliyi sektorunda ikitərəfli ticarəti və birgə müəssisələrin yaradılmasını təşviq etmək üçün bu biznes tədbirini təşkil edir.<br><br>Daha ətraflı məlumat üçün aşağıdakı keçidləri ziyarət edin:<br><br>Broşür: http://www.gttes.india-itme.com/pdfs/GTTS_Brochure.pdf<br><br>Vebsayt: www.gttes.india-itme.com |
| **Tarix**<br>7- 10 fevral, 2019<br>**Keçirildiyi yer**<br>İzmir, Türkiyə | Hörmətli sahibkarlar,<br><br>Sizi Türkiyədə keçiriləcək 14-cü "AGROEXPO" Kənd Təsərrüfatı və Heyvandarlıq Sərgisinə dəvət edirik. |

| **Əlaqə üçün** | "AGROEXPO" sərgidə 70 ölkədən 950 iştirakçı və 350.000 ziyarətçi olmağı planlaşdırılır. Sərgidə Türkiyənin bütün bölgələrindən nümayəndələrin iştirakı gözlənilir. Bütün iştrakçılarn türk ticarət tərəfdaşları tapmaq, yeni imkanlar əldə etmək və kənd təsərrüfatı sahəsində ticarət əlaqələri qurmaq imkanı olacaqdır. Eyni zamanda iştirakçılar B2B görüşlərinə qatıla biləcəklər. |
|---|---|
| *EBRU AÇILANBAHAR*<br><br>*Beynəlxalq əlaqələr üzrə nümayəndəlik*<br><br>Tel: +902324440476<br>Mob: +90 533 134 20 67<br>Fax: +902322773904<br>E-mail:<br>international@orionfair.com<br>Veb sayt:<br>www.agroexpo.com.tr | |

## SAHİBKARLARIN NƏZƏRİNƏ

Özbəkistanda acı bibər istehsalçıları xarici tərəfdaş axtarışındadır. Ətraflı məlumatı linkdən əldə edə bilərsiniz. https://bit.ly/2E0vB1U

İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutunda Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına” dair strateji yol xəritəsi ilə müəyyən edilmiş tədbirlərin icrasının həyata keçirilməsi davam edir.
Elmi və Texniki İnformasiya Beynəlxalq Mərkəzi( ISCTI) ilə əməkdaşlıq çərçivəsində ölkəmizdəki texnologiyaların təşviqinin genişləndirilməsi istiqamətində sahibkarlar və maraqlananlar əməkdaşlığa dəvət olunurlar. Mövcud texnologiyalara dair təklif və sorğu formasını qeyd olunan keçiddən istifadə edilə bilər:
http://ier.az/az/snews.php?id=393

Əlavə məlumat üçün Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasına müraciət edə bilərsiniz.

Azərbaycan, Bakı, Akad. Həsən Əliyev küç. 57; tel:(+994 12) 465 72 42
office@ask.org.azwww.ask.org.az